**İlhamə Məmməd qızı Əsədova,**
Azərbaycan Respublikası Təhsil İnstitutunun
böyük elmi işçisi

# PEDAQOJİ KOLLEKTİVİN TƏLİMƏ DƏSTƏK MƏRKƏZİ İLƏ BİRGƏ İŞ SİSTEMİ

**Ильхама Mamed kızı Асадова,**
старший научный сотрудник Института Образования
Азербайджанской Республики

# СОВМЕСТНАЯ РАБОЧАЯ СИСТЕМА ПЕДАГОГИЧЕСКОГО КОЛЛЕКТИВА С ЦЕНТРОМ ПОДДЕРЖКИ ОБУЧЕНИЯ

**Ilhama Mammad Ashadova**
senior academic researcher at the Institute of Education
the Institute of Azerbaijan Republic

# JOINT WORKING SYSTEM OF A PEDAGOGICAL TEAM WITH A TRAINING SUPPORT CENTER

**Xülasə:** Məqalədə pedaqoji kollektivin Təlimə Dəstək Mərkəzi ilə birgə iş sistemindən söz açılır. Məktəb rəhbərliyinin pedaqoji kollektivin səriştəliliyinin artırılması və peşəkarlığının idarə edilməsi üçün Təlimə Dəstək Mərkəzinin fəaliyyətindən yararlanmaq üçün mentor dəstəyinin əhəmiyyətindən bəhs olunur. Pedaqoji kadrların əlavə ixtisas və bacarıqlarından təlim-tərbiyə işlərində səmərəli istifadəsi yolları göstərilir.

***Açar sözlər:*** *peşəkarlıq, təlimə dəstək, mentor, metodist, səriştə, təlim, tədris, beynəlxalq təcrübə*

**Резюме:** В статье обсуждается совместная система работы педагогического коллектива с Центром поддержки обучения. Отмечается важность поддержки наставников, чтобы извлечь выгоду из совместной работы с Центром поддержки учебных центров для повышения компетентности и профессионализма педагогического персонала школы. Так же показаны способы присвоения дополнительных навыков и умений педагогическими кадрами которых являются эффективными в преподавании и обучении.

***Ключевые слова:*** *профессионализм, поддержка обучения, наставник, методист, компетентность, обучение, обучение, международный опыт*

**Summary:** The article discusses the joint system of work of the teaching staff with the Center for Support of Education. The importance of supporting mentors is noted in order to benefit from working together with the Center for Support of Training Centers to increase the competence and professionalism of the school's teaching staff. It also shows how to assign additional skills and skills of teaching staff, which are effective in teaching and learning.

***Key words:*** *professionalism, training support, mentor, methodist, competence, training, teaching, international experience*



"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilin məzmununun, infrastrukturu və idarəetmə sisteminin yenidən qurulması, cəmiyyətin ehtiyac və tələbatlarına uyğunlaşdırılması prioritet istiqamət olub, ümumtəhsil məktəblərində pedaqoji kollektivin peşəkarlığının inkişafı üçün idarəetmənin səmərəli təşkili, peşəkarlığın

təmin olunmasını ön plana çəkir. Təlim-tərbiyə prosesinin müasir dövrün tələbləri səviyyəsində təşkili, idarə olunması, qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi, tətbiqi, gənc müəllimlərlə işin təşkili və s. istiqamətlər üzrə mentorluq dəstəyinin göstərilməsi zəruridir. 2018-ci il, noyabrın 28-də keçirilmiş Azərbaycan müəllimlərinin qurultayının qəbul etdiyi qətnamədə bir sıra istiqamətlərlə yanaşı, bütün təhsil pillələri üzrə səriştə əsaslı, müəllimin hazırlığı üzrə yeni məzmunun tətbiqi, təcrübə komponentinin əhəmiyyətli şəkildə artırılması öz əksini tapır. Həmçinin İKT əsaslı infrastrukturun və elektron idarəetmə sisteminin yaradılması, rəqəmsal bacarıqların inkişafı, tədris resurslarından istifadənin genişləndirilməsi, bu sahədə pedaqoji və inzibati heyətin potensialının gücləndirilməsi, ümumtəhsil müəssisələrində çalışan müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi, peşəkarlıq səviyyəsinin yüksəldilməsi yolu ilə onların əməyinin stimullaşdırılması və müəllim nüfuzunun yüksəldilməsi istiqamətində son illərdə qazanılmış təcrübənin zənginləşdirilməsi, davam etdirilməsi məsələləri də Azərbaycan müəllimlərinin XV qurultayının qətnaməsində öz əksini tapıb. Nəzərdə tutulan vəzifələrin həyata keçirilməsi, ümumtəhsil müəssisələrində idarəetmənin tələbləri səviyyəsində təşkili öz aktuallığını artırır. Xüsusən, pedaqoji kollektivin peşəkarlığının idarə olunmasını diqqət mərkəzinə çəkir.

Təhsil işçiləri, xüsusən mentorlarla sıx əməkdaşlıq məktəb rəhbərinin pedaqoji kollektivin peşəkarlığının idarə edilməsini nəzarətdə saxlamaq məqsədi daşıyan əsas hədəflərindəndir. Bu baxımdan, beynəlxalq təcrübədəki uğurlu nəticələrə əsaslanaraq, ölkəmizdə də məktəblərə mentorluq dəstəyinin gücləndirilməsi vacibdir. Mentorun peşəkarlığı sayəsində fənn əsaslı və təlim prosesinin hər bir komponenti nəzərə alınmaqla tədris edilə bilir. Buna nail olmaq üçün ümumtəhsil müəssisələrinə göstərilən mentorluq dəstəyinin məzmunu və təşkilati-struktur forması dəyişdirilməli, müasir yanaşmaları nəzərə almaqla daha səmərəli model yaradılmalıdır. Bu tələbi ödəmək məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndinə əsaslanaraq, Təhsil Nazirliyinin 2016-cı il, oktyabrın 27-si tarixli əmri ilə Bakı şəhər Təhsil İdarəsinin Metodik Mərkəzi ləğv edildi və onun bazası əsasında yeni qurum olan Təlimə Dəstək Mərkəzi yaradıldı. Məqsəd müxtəlif layihələrlə tədrisin və idarəetmənin səmərəli, peşəkar təşkilinə, müəllimlərin peşəkarlığının artırılmasına yardımçı olmaqdır. Təlimə Dəstək Mərkəzi aid olduğu Təhsil İdarəsinin nəzdindəki müəssisələrdə metodik işin düzgün qurulması, pedaqoji innovasiyaların müəssisələrə çatdırılması, təlimin keyfiyyətinin artırılması və fənn metodbirləşmələrinin fəaliyyətinin düzgün istiqamətləndirilməsi işini həyata keçirir.

Mərkəzin layihələrində idarəedənin pedaqoji və ictimai-fəlsəfi baxımdan məktəbin əsas hədəflərinə özünəməxsus yanaşmasına da xüsusi yer verilir. Məktəb rəhbərliyi pedaqoji kollektivin səriştəliliyinin artırılması və idarə edilməsi istiqamətlərində TDM-nin fəaliyyətindən yararlanmaq imkanına malikdir. Bu məqsədlə, məktəb rəhbəri TDM ilə 5 istiqamətdə sistemli iş aparmalıdır Həmin iş sistemini aşağıdakı sxemlə gösrətmək olar:.




Məktəb rəhbərliyi TDM ilə aşağıdakı istiqamətlərdə sistemli iş apara bilər:

***1. Təlim və tədrisin idarə olunması istiqamətində*:**

*a) Təhsil müəssisəsində pedaqoji prosesin sistemli idarəolunması istiqamətində iş:*

- direktor və təlim-tərbiyə işləri üzrə direktor müavinləri tərəfindən fəaliyyət planının hazırlanması və idarə edilməsi;
- nümunəvi perspektiv və cari plan nümunələrinin hazırlanması;
- pedaqoji şuranın işinin düzgün planlaşdırılması və idarəedilməsi;
- hesabat sisteminin yaradılması və idarə edilməsi üzrə çərçivə sənədlərinin hazırlanması;
- təlim-tərbiyə işlərinin səmərəli təşkilində məktəb rəhbərliyinin iştirakı;
- tədris proqramlarının yerinə yetirilməsinə və təhsil strategiyasının əsas komponentlərinin inkişafına nəzarət;
- müəllimlərin peşə hazırlığının yüksəldilməsi;
- müasir texnologiya və metodlardan istifadə etməklə səmərəli fəaliyyətin qurulması;
- portfolio sisteminin yaradılması;
- qiymətləndirmənin nəticələrinə əsasən məktəb fəaliyyətinin düzgün planladırılması;
- məktəblərdə psixoloji xidmətin təlim-tərbiyə prosesinə tətbiqi, onun düzgün təşkili.

*b) Məktəb mühitinin düzgün təşkili:*

- məktəb mühitinin diaqnostikası;
- məktəb mühitinin diaqnostikası və dəyərləndirilməsi üçün vasitələr hazırlaması;
- məktəb mühitinin dəyərləndirilməsi üzrə qiymətləndirmə aparılması və nəticələrin təhlili;
- məktəb-valideyn icması,məktəb–qeyri-hökümət təşkilatlarının istiqamətləndirilməsi;
- məktəbdə davranış, etik normaları əks etdirən qaydaların yaradılması;
- müsbət öyrədici mühitin yaradılması və prosesin davamlılığının təminatı, məktəbdaxili öyrədici mühitin zənginləşdirilməsi, rəqabətin artırılması məqsədilə tədbirlərin həyata keçirilməsi;
- şagirdlərin sosial inkişafının təmin edilməsi ilə bağlı müvafiq tədbirlərin təşkili.

*c) Gənc müəllimlərlə peşəkarlığın artırılması:*

- dərsin planlaşdırılması, müvafiq planların hazırlanmasının davamlı təşkili;
- məktəb sənədlərinin hazırlanması;
- müasir texnologiyalardan düzgün istifadə;
- İKT-nin yerində və məqsədli tətbiqi;
- resurslardan səmərəli istifadə edilməsi;
- gənc müəllimlərlə təcrübəli müəllimlər arasında əməkdaşlıq əlaqələrinin yaradılması;
- induksiya (peşəyə giriş) proqmlarının tətbiqinin təşkili.

***1.1. Müəllimlərin peşəkar inkişafı üzrə işin təşkili:***

- müəllimlərin peşəkar inkişafının davamlı aparılması sahəsində tədbirlərin həyata keçirilməsi;
- pedaqoji kadrların maraq və ehtiyaclarının öyrənilməsi;
- pedaqoji kadrların təkmilləşdirilməsinin səmərəli forma və metodlarının müəyyənləşdirilməsi;
- müəllim fəaliyyətinin qiymətləndirilməsi vasitələrinin hazırlanması;
- pedaqoji kadrlar üçün stimullaşdırıcı tədbirlərin təşkili;
- müəllimlərin ixtisaslarının artırılmasının daha səmərəli formalarının müəyyənləşdirilməsi;
- qabaqcıl müəllimlərin hazırladıqları didaktik materialların, tədris vəsaitlərinin müzakirəsi, rəyə verilməsi, çapa hazırlanması, onların tətbiqi;
- qabaqcıl təcrübəyə malik yenilikçi müəllimlərin üzə çıxarılması, onların iş təcrübəsinin öyrənilməsi və yayılması mexanizmlərinin hazırlanması;
- beynəlxalq (dublyajla) və yerli ustad dərslərinin canlı və videoçarxlarının nümayişinin, təhlilinin təşkili;
- metodbirləşmə rəhbərlərinin fəallığının artırılması;

- təhsilin keyfiyyətinin artırılmasına yönəlmiş elmi-praktik konfranslar, "dəyirmi masa", seminar və treninqlər təşkil etməklə qabaqcıl müəllimlərin müəyyənləşdirilməsi.

**2. *Tədrisin idarə olunması istiqamətində*:**

Tədris prosesinin ayrı-ayrı komponentlərinin vəziyyətinin öyrənilməsi, təhlili və bu sahədə pedaqoji kadrlarla işin aparılması, onların təhsil prosesində ayrı-ayrı komponentlərlə bağlı ehtiyaclarının qarşılanması ilə əlaqədar çətinliklərin aradan qaldırılması:

- sinfin idarə olunması;
- təlimə ayrılan vaxtdan səmərəli istifadə edilməsi;
- müəllim-şagird,şagird-şagird münasibətlərinin qurulması,şagird davranışlarının idarə edilməsi;
- müəllim-valideyn, müəllim-idarəedici, müəllim-ictimaiyyət münasibətlərinin qurulması;
- cari və illik planlaşdırmaların hazırlanması;
- proqramların səmərəli və vaxtında reallaşdırılması;
- nümunəvi planlaşdırma metodlarının araşdırılması, təhlili, uyğun modellərin seçilməsi, nümunəvi sənədlərin hazırlanması, bununla bağlı müzakirələrin aparılması ;
- qiymətləndirmə ilə bağlı maarifləndirmə işinin aparılması;
- qiymətləndirmənin metod və vasitələrinin hazirlanması, onlardan təlim prosesində düzgün istifadə edilməsi;
- sinifdaxili və məktəbdaxili qiymətləndirmənin təşkili, nəticələrin təhlili;
- fənlərin dövlət standartları səviyyəsində tədrisnə nail olunması;
- çoxvariantlı tədris planı, proqram və dərsliklərlə işləmə metodikasına nail olunması;
- kitabxanaların imkanlarından səmərəli istifadə və onların informasiya-resurs mərkəzlərinə çevrilməsi istiqamətində fəaliyyətinin təşkili.

***3.Təhsilalanlarla işin təşkili və idarə olunması istiqamətində*:**

*a) Məktəbəqədər yaşlı uşaqların tədris prosesində hazırlığının öyrənilməsi, təhlil edilməsi, kadr hazırlığı istiqamətində iş:*

- məktəbəqədər təhsilin məzmunu, təşkilinin səmərəli forma və metodlarının müəyyənləşdirilməsi, düzgün tətbiqinə dair vasitələrin hazırlanması;
- müvafiq yeniliklərin davamlı şəkildə məktəblərə ötürülməsinə nəzarət;
- məktəbəqədər təhsilin idarə olunması;
- uşaqların yaş psixologiyasını nəzərə alaraq, inkişafetdirici mühitin yaradılması istiqamətində tövsiyələrin hazırlanması;
- məktəbəqədər yaşlı uşaqların ümumi təhsil prosesinə hazırlığının təmin olunması məqsədilə ümumitəhsil müəssisələrinin pedaqoji kadr potensialının inkişafını istiqamətləndirilməsi;
- təhsilverənlərin keyfiyyət göstəricilərinin izlənməsi məqsədli mexanizmin hazırlanması;
- pedaqoji kadrların ixtisaslarının artırılması məqsədilə ARTİ və TİPİİ-yə sifarişlər hazırlanması.

*b) Xüsusi istedada malik, sağlamlıq imkanları məhdud olan şagirdlərlə səmərəli işin təşkili:*

- xüsusi istedada malik uşaqların yaradıcılıq potensialının inkişafı üçün lazımi işlərin görülməsi;
- xüsusi istedada malik uşaqların yaradıcılıq potensialının nümayişi və uğurlarının dəstəklənməsi;
- istedadlı şagirdlər arasında sağlam rəqabət yaratmaqla onların potensialının daha da inkişaf etdirilməsi;
- inklüziv təhsilin mahiyyəti və əhəmiyyəti haqqında maarifləndirmənin təşkili;
- xüsusi qayğıya ehtiyacı olan uşaqların düzgün təhsil xidmətinə yönəldilməsi, onlarla iş sisteminin yaradılması;
- fiziki məhdudiyyətli uşaqların potensial imkanlarının aşkarlanması üzrə işin təşkili;

- xüsusi qayğıya ehtiyacı olan uşaqlar arasında müsabiqə, sərgi, yarış və olimpiadaların təşkili.

**4. *Fənn kurikulumlarının tətbiqinə nəzarət bölməsi istiqamətində*:**

*Yeni fənn proqramlarının tətbiqinin reallaşdırılması vəziyyətinin öyrənilməsi:*

- fənlərin tədrisi zamanı qarşıya çıxan problemlərin təhlili, qruplaşdırılması;
- çətinliklərin aradan qaldırılması məqsədilə müvafiq alətlərin hazırlanması;
- dərsləri dinləmə meyarlarının hazırlanması, dinlənilməsi və təhlili;
- fənn kurikulumlarının tələblərinə uyğun planlaşdırmanın hazırlanması;
- yeni fənn proqramları əsasında hazırlanmış dərslik və dərs vəsaitlərinin müəllifləri ilə görüşlərin təşkili, onların müzakirəsi;
- proqram və dərsliklərlə işləməyin metodikası üzrə işin təşkilinə nəzarət;
- fənlərin tədris keyfiyyəti ilə yanaşı, şagirdlərin bilik, bacarıq və vərdişlərinin səviyyəsinin öyrənilməsi.

**5. *Elektron resurslar bölməsi*:**

*Elektron resursların hazırlanması;*

- hazırlanan resursların məktəblərə ötürülməsi, onlardan düzgün və səmərəli istifadə;
- TDM-nin bloqu ilə əlaqənin təşkili;
- hazırlanan resursların yerləşdirilməsi, ümumtəhsil məktəblərinə ötürülməsi;
- resursların hazırlanması üzrə müsabiqələrin elan edilməsi;
- ən yaxşı dərs nümunələrinin və resursların portala yerləşdirilməsi;
- pedaqoji kollektivin elektron kitabxananın imkanlarından səmərəli istifadə olunmasına və onların informasiya-resurs mərkəzinə çevrilməsinə yönəldilməsi.

***Məktəb direktorunun pedaqoji kollektivin peşəkarlığının idarə olunmasının sistemli həllinə yiyələnməsi üçün bir sıra məsələləri diqqət mərkəzində saxlaması:***

1. Məktəblə Təlimə Dəstək Mərkəzinin əlaqələri gücləndirilməli, həm idarə edənlərin, həm də fənn müəllimlərinin TDM-nin dəstəyindən yararlanmalarına şərait yaradılmalı, məktəb mentor dəstəyi ilə təmin edilməlidir.

2. Təhsil müəssisələri TDM tam orta təhsil səviyyəsində keyfiyyətin təmin edilməsi istiqamətində fəaliyyət göstərən müəssisə, təşkilat, tabeliyində olduğu Təhsil İdarəsi vasitəsilə qarşılıqlı əlaqə saxlayıb, əməkdaşlığı gücləndirməlidir.

3. Mövcud vəziyyəti göstərən, təhsil müəssisələri qarşısında duran məsələlərin həlli yollarını, pedaqoji prosesin sistemli idarə olunmasını təmin etməli, davamlı istiqamətləndirməli, mentor dəstəyinin təşkilinə rəhbərlik etməlidir.

4. Təhsil müəssisəsi öz fəaliyyət metodlarını, forma və iş metodlarını müəyyən etməli, Tİ-nin rəhbərliyi ilə razılaşdırmalı, iş strategiyasını TDM-nin strateji inkişaf planı əsasında qurmalıdır.

5. Məktəbin idarəolunmasında uğura nail olmaq üçün dünya təcrübəsinə əsaslanmalı, uğurlu təhsil sisteminə malik ölkələrin idarəetmə sisteminə dair, ustad dərslərin dublyajla, tərcümə ilə dinlənilməsi və təhlilinin təşkili vacibdir.

6. ARTİ və TİPİİ-nin əməkdaşları, müvafiq yerli, beynəlxalq təhsil təşkilatlarının köməyindən istifadə etməkdə, onlar arasında əlaqələr yaratmaqda,gücləndirməkdə fəallıq göstərməlidir.

7. Gənc, savadlı və bacarıqlı kadrların məktəblərə cəlb olunması məqsədilə ali, orta ixtisas təhsili müəssisələri ilə əlaqələrin yaradılmasını ön plana çəkməlidir.

8. Kollec məzunlarının ali məktəb, ali məktəb məzunlarının magistr təhsilinə və digər distant təhsilə yönəldilməsi ilə bağlı iş aparılmalıdır.

9.Dərs saatlarının az olduğu, müəllim çatışmazlığı hallarında müəyyən yaxın profil üzrə müəllimlərin ixtisasının (riyaziyyat-informatika, kimya-biologiya və s.) dəyişdirilməsi, artırılmasına, təkmilləşdirilməsinə yönəldilməlidir.

9. Ümumtəhsil müəssisələrinin fəaliyyətinin yeni pedaqoji texnologiyalar əsasında qurulmasına və tədris prosesinin ayrı-ayrı komponentlərinin düzgün planlaşdırılmasına nail olunmalıdır.

10. Mütəmadi yenilənən texnologiyaların, yanaşmaların məktəbə çevik tətbiq edilməsinin təminatına nail olunmalıdır. Təlimin məzmununun təkmilləşdirilməsi və yeni pedaqoji texnologiyaların öyrənilməsinə prioritet istiqamət olmalıdır.

11. Təlim-tərbiyə işlərinin keyfiyyətinin yüksəldilməsi və yeniliklərin tətbiqi məsələlərində təlim-tərbiyə işləri üzrə direktor müavinlərinin, metodbirləşmə rəhbərlərinin, digər pedaqoji kadrlar arasında məsuliyyətin bölüşdürülməsi idarəetmədə həlledicidir.

Məktəb təhsil alana bilik, bacarıq və vərdişlər verməklə, onun şəxsiyyət kimi yetişməsinə, formalaşmasına xidmət edir. Ona görə də ümumi təhsil müəssisələrinin fəaliyyəti səmərəli təşkil olunmalı, təhsilalan və təhsilverənin inkişafı üçün əlverişli mühit yaradılmalıdır. Məktəbdə işi səmərəli qurmaq, uğur əldə etmək və əlverişli mühit formalaşdırmaq üçün ilk növbədə konkret plan hazırlanmalı, hədəflər, eləcə də məqsədə çatmaq üçün həyata keçirilməli tədbirlər müəyyənləşdirilməlidir. Təlimdə ehtiyac və maraqların nəzərə alınması, keyfiyyətə üstünlük verilməsi, ümumtəhsil müəssisələrinin lazımi avadanlıqlarla təmin edilməsi, qərarların qəbulu zamanı kollektivin rəyinin nəzərə alınması, məktəbdaxili qiymətləndirmə mexanizminin yaradılması, valideynlərlə sıx əlaqə qurulması, məktəbdə məsuliyyətin bölüşdürülməsi, hər kəsin öz işinə məsuliyyətlə yanaşması, valideyn və ictimaiyyətin məktəblə əlaqəsinin gücləndirilməsi kimi cəhətlərin həllinə nail olmaq üçün, ilk növbədə, səmərəli idarəetmə sisteminin yaradılması tələb edilir. Peşəkar idarəetmə və kollektiv keyfiyyətin dinamikasının yüksələn xətlə inkişafının təminatçısıdır. Deməli, peşəkarlığın inkişafının iki istiqaməti – idarəetmə və müəllimlik fəaliyyətinin, peşəkarlığının artırılması məktəbi idarəedənlərin əsas hədəfidir.

Aparılan araşdırmalar göstərir ki, qabaqcıl dünya təcrübələrinə əsaslanaraq, ümumtəhsil məktəblərində pedaqoji kollektivin peşəkarlığının inkişafının idarə olunması modelləri mövcuddur. Ümumtəhsil məktəblərində pedaqoji kollektivin peşəkarlığının inkişafının idarə olunmasının mahiyyəti, məzmunu, prinsipləri, təşkili, mövcud vəziyyəti öyrənilmiş və elmi-nəzəri əsasları işlənib hazırlanmışdır. Ümumtəhsil məktəblərində pedaqoji kollektivin peşəkarlığının idarə olunması normativ-hüquqi sənədlərə və "Təlimə Dəstək Mərkəzinin Əsasnaməsi"nə uyğun təşkilinə, idarə edilməsinə üstünlük verilir. Ümumtəhsil məktəblərində pedaqoji kollektivin peşəkar inkişafının idarə olunmasında yeni mexanizmlər, onların nəzəri və praktik məsələlərinin tətbiqi yolları, sistemli yanaşma istiqamətləri modernləşdirilir. Pedaqoji kollektivin peşəkar inkişafının idarə olunmasının mərhələlər üzrə tətbiqi müəyyənləşir. İlk mərhələdə pedaqoji heyətin ehtiyaclarının diaqnostikası öyrənilir. Növbəti mərhələlərdə pedaqoji kollektivin peşəkar inkişafının idarə olunması üzrə məktəb rəhbərinin fəaliyyət planı hazırlanır, işin təşkili, ona nəzarət sistemi yaradılır. Son mərhələdə istiqamət üzrə pedaqoji şuraya və məktəb şurasına hesabat verilir.

Təlimə Dəstək Mərkəzi ilə beş fəaliyyət istiqamətində işin ardıcıllığı müəyyən olunur. Təlimə Dəstək Mərkəzi ərazidə olan ümumtəhsil müəssisələrində pedaqoji kollektivlərin mentor dəstəyi, metodiki təminatın idarə olunmasını təşkil edir. Əlavə təhsil proqramları üzrə pedaqoji kadrların hazırlığı ilə məşğul olan təlimlərin daxil edilməsi professional pedaqoji kadr hazırlığı üçün bir vasitə kimi formalaşdırılır. Pedaqoji kadrların əlavə ixtisas və bacarıqlarından təlim-tərbiyə işlərində səmərəli istifadəsi yolları göstərilir. Məktəbin idarə edilməsinə, metodbirləşmələrə və fənn birləşmələrinə rəhbərlik etmək üçün təlimlərdən keçmiş, qabaqcıl təcrübəyə, ixtisas biliklərinə və İKT-dən istifadə etmək bacarığına malik mütəxəssislər cəlb edilirlər.

Qabaqcıl beynəlxalq təcrübə, ustad müəllimlərin iş təcrübələrinin öyrənilməsi və yayılması istiqamətində iş aparılması mexanizmləri hazırlanır. Beynəlxalq və ölkədaxili ustad dərslərin dinlənilməsi, təhlili təşkil olunur. Məktəbin distant təlim layihəsinə qoşulması, tabeliyindəki pedaqoji işçilərin, müəllimlərin distant təlimə cəlb olunmaları, daim yeniləşən yanaşmanın məktəbə çevik tətbiqi təmin edilir, məktəbdaxili və məktəblərarası öyrədici mühitin zənginləşdirilməsi formalaşır.